# İnsan alverinə qarşı mübarizə üzrə beynəlxalq və milli qanunların təhlili

**Gülnar Nəzərova**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*Əmək və Sosial Problemlər üzrə ETTM*
**E-mail:** sqtib@yahoo.com

**Rəyçilər:** f.ü.e.d., prof. Q.Y. Abbasova,
t.ü.e.d., AMEA-nın müxbir üzvü M.M. Məmmədova

**Açar sözlər:** insan alveri qurbanları, yardım prosesi, sosial reabilitasiya və reinteqrasiya, Avropa şurasının hüquqi sənədləri

**Ключевые слова:** жертва от торговли людьми, социальная реабилитация, реинтеграция, законы Евросоюза

**Key words:** victims of human trafficking, assistance process, social rehabilitation and reintegration, legal documents of Council of Europe

BMT ona üzv olan dövlətləri insan hüquqlarının müdafiəsini təmin etməyə və bu istiqamətdə müsbət addımlar atmağa çağırır. Hər bir dövlətin hüquqi öhdəlikləri konvensiyalar və digər hüquqi sənədlərlə müəyyən olunur. Bununla bağlı əsas tələblər BMT-nin rəsmi sənədlərində göstərilir. Regional səviyyədə isə Avropa Şurası və Avropa İttifaqı insan alverinə qarşı mübarizə haqqında qanunvericiliklə bağlı Mərkəzi, Şərqi Avropa və keçmiş Sovet İttifaqı ölkələrinin öhdəliklərini müəyyən edir. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) və Cənub-Şərqi Avropa üçün sabitlik Paktı üzv dövlətlərin insan alverinə qarşı mübarizə siyasəti və standartlarını yaratmaqla bağlı öhdəlikləri müəyyən edir [1].

Azərbaycanda insan alveri problemi Sovet ittifaqı dövründən mövcud olmuşdur. Lakin o zamanlar həmin əməllər cinayət hesab olunmurdu və adətlər kimi qəbul edilirdi. Məsələn, ailə qurmaq məqsədilə qızların Türkmənistana aparılmsı və evləndirmə adı ilə qızın yüksək "başlıq"la satılması halları mövcud idi. Uşaq əməyinin kütləvi istismarı (xüsusən kənd təsərrüfatında) halları da mövcud idi. Lakin bu da adət və eyni zamanda partiyanin qərarları hesab edilirdi. Yəni cinayət əməlləri mövcud idi, lakin həmin əməllər cinayət hesab olunmurdu.

Sovet İttifaqının dağılması, sərhədlərin açılması, ölkənin keçid dövrünü yaşaması insan alverinə daha çox şərait yaratdı və insanlar transmilli cinayətkar qrupların qurbanlarına çevrilməyə başladılar. "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunun qəbuluna və Cinayət Məcəlləsində insan alverinin cinayət məsuliyyəti yaradan əməl kimi nəzərdə tutulmasına qədər olan müddətdə qurbanların müdafiəsi mexanizmi yox idi. Azərbaycanda bu fəaliyyətə 2004-cü ildən başlanıldı. Bu dövrə qədər beynəlxalq təşkilatlar və yerli QHT-lər insan alverini cinayət məsuliyyəti yaradan əməl kimi nəzərdə tutan qanunun qəbul edilməsinə çalışırdılar. Bu işdə daha aktiv olan təşkilat isə Beynəlxalq Miqrasiya Təşkilatı idi. Həmin təşkilatın Azərbaycan hökumətinə tövsiyələri və bu istiqamətdə bir sıra layihələri də var idi.

2000-ci ildən başlayaraq insan alveri dövlət orqanları tərəfindən həll edilməsi vacib olan məsələ kimi gündəmə gətirildi. Bu prosesi hökumət və QHT nümayəndələrinin bir sıra beynəlxalq layihə və proqramlarda iştirakı, eləcə də yerinə yetirilməli olan beynəlxalq

öhdəliklər sürətləndirdi. İnsan alveri ilə bağlı ilk böyük miqyaslı müzakirə Demokratik Təsisatlar və İnsan Hüquqları İctimai Birliyi və ATƏT-in 2000-ci ildə qadınlara qarşı zorakılıq əleyhinə təşkil etdikləri konfransda baş tutdu. Bu və digər oxşar müzakirələr və konfranslar, eləcə də qanunvericilik və institusional çərçivənin tədricən formalaşması beynəlxalq təşkilatların (məsələn, BMT), Avropa Birliyi və Amerika Birləşmiş Ştatlarının birbaşa təsiri altında baş verdi. Azərbaycan hökumətinin bu fəaliyyəti onun Avropa Birliyinə tədricən yaxınlaşması və ABŞ hökuməti ilə əməkdaşlıq əlaməti kimi qəbul edilməlidir. 2001-ci ildə qadın zorakılığı və insan alverinə qarşı mübarizə kontekstində polis əməkdaşları, daha sonra prokurorluk və məhkəmə rəsmilərinin iştirakı ilə yeni proqram icra olunmağa başlanıldı. 2001-ci ildən Azərbaycan BMT-nin Qadınlar üçün İnkişaf Fondunun "zorakılıqsız həyat" adlı regional informasiya kampaniyasına qoşuldu. 2003-cü ildə cinsi istismar məqsədilə insan alverinə qarşı mübarizə fəaliyyəti ilə bağlı Avropa Şurasının tövsiyələri Azərbaycan dilinə tərcümə edildi. BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyası, onu tamamlayan "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması" Protokolu[1] və "İnsan alverinin qarşısının alınması və ona qarşı mübarizə haqqında" Brüssel Bəyannaməsi 2003-cü il mayın 13-də Azərbaycan Respublikasının qanunu ilə təsdiq edildi [2].

"İnsan alverinə qarşı mübarizə haqqında" Avropa Şurası Konvensiyasının implementasiyası ilə bağlı öhdəliklərin yerinə yetirilməsi üçün Azərbaycan Respublikasının 2013-cü il 19 aprel tarixli qanunu ilə Cinayət Məcəlləsinə və "İnsan alverinə qarşı mübarizə haqqında" Qanuna insan alveri qurbanlarının reabilitasiyasına və repatriasiyasına dair yeni normalar əlavə olundu. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə "Çətin həyat şəraitində hesab edilmənin əsasları üzrə şəxsin (ailənin) çətin həyat şəraitində olmasını təsdiq edən sənədlərin Siyahısı", "İnsan alveri qurbanlarının repatriasiya" və "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi" ilə bağlı qaydalar təsdiq edildi. Qurbanlara zəruri tibbi, psixoloji, sosial və hüquqi yardımın göstərilməsində, onların məşğulluqlarının təmin edilməsində, maarifləndirmə və təbliğat işlərinin aparılmasında qeyri-hökumət təşkilatlarının imkanlarından daha səmərəli istifadə olunması üçün 2013-cü ilin iyul ayında DİN ilə İnsan Alverinə Qarşı Qeyri-Hökumət Təşkilatları Koalisiyası arasında 2013-2018-ci illəri əhatə edən Anlaşma Memorandumu imzalanmış, Koalisiyanın Əsasnaməsinə müvafiq dəyişikliklər edilmişdir [3].

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 fevral tarixli Qərarı ilə "İnsan alveri qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası üzrə Proqram" qəbul olunmuşdur. "İnsan alveri qurbanlarının müəyyən edilməsi" və "İnsan alveri qurbanları üçün xüsusi müəssisələrin yaradılması, maliyyələşdirilməsi, fəaliyyəti, habelə

[1] Palermo protokolları BMT-nin Transmilli Mütəşəkkil Cinayətkarlığa qarşı Konvensiyasına əlavə olaraq qəbul edilmişdir və 3 protokoldan ibarətdir:
— "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması" haqqında Protokol;
— "Miqrantların quru, dəniz və hava ilə sərhəddən qanunsuz keçirilməsinə qarşı" Protokol (Hər iki Protokol Ali Məclisin 2000-ci il 15 noyabr tarixli, 55/25 saylı Qətnaməsi ilə qəbul edilmiş, Azərbaycan Respublikasının Prezidentinin 13 may 2003-cü il tarixli, № 435-IIQ Qərarı ilə Azərbaycan ratifikasiya etmişdir.);
— "Odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz hazırlanmasına və dövriyyəsinə qarşı" Protokol (Ali Məclisin 31 may 2001-ci il tarixli, 55/255 saylı Qətnaməsi ilə qəbul edilmiş, Azərbaycan Respublikası Protokola Azərbaycan RespublikasıPrezidentinin 10 sentyabr 2004-cü il tarixli, №750-IIQ Qərarı ilə qoşulmuşdur).

onların fəaliyyətinə nəzarət" Qaydalarına Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 9 noyabr tarixli 203 nömrəli Qərarı ilə müvafiq dəyişikliklər edilmişdir [4].

Azərbaycanda insan alveri qurbanlarının ən çox qarşılaşdıqları istismar forması cinsi istismardır. Cinsi istismar qurbanlarının hüquqları "İnsan Alverinə Qarşı Mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu, Cinayət Məcəlləsi və digər yerli və Azərbaycan Respublikasının ratifikasiya etdiyi beynəlxalq sənədlərlə tənzimlənir. 2013-cü il 19 aprel tarixində Cinayət Məcəlləsinə dəyişiklik edilənə qədər yalnız ölkə xaricində baş verən istismar halları insan alveri kimi qiymətləndirilirdi. Bu ziddiyyət səbəbindən ölkə daxilində cinsi istismara, məcburi əməyə məruz qalanların insan alveri qurbanı kimi hüquqları təmin edilmirdi. Qanunvericilikdəki bu dəyişiklik ayrı-seçkiliyi aradan qaldırmışdır.

"İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması" haqqında Protokola (2000-ci il) əsasən, uşaq alveri dedikdə uşaqların istismar məqsədilə cəlb edilməsi, daşınması, təhvil verilməsi, təhvil alınması, gizlədilməsi başa düşülür. Bu, onların hüquqları və rifahını pozur, potensiallarının reallaşmasının qarşısını alır [5, maddə 3]. İnsan alveri barədə Palermo Protokolu uşaqlarla əlaqədar (c) yarımbəndində uşaqların xüsusi vəziyyətini tanıyır və onlarla əlaqədar insan alverinin baş tutması üçün "vasitənin" olması zərurətini aradan qaldırır. Başqa sözlə, uşaqlarla əlaqədar insan alverinin baş verməsi üçün "hədələmək" və ya güc istifadə etmək və ya məcburetmənin başqa formaları, qaçırma, dələduzluq, aldatma" hallarının mövcud olması vacib deyil. Məsələn, əgər valideyn öz övladını müəyyən yerə göndərirsə və orada o, işləməyə məcbur edilirsə (məs., küçələrdə dilənçilik etməyə), hətta uşaq bu işin könüllü iştirakçısıdırsa və bir müddətdən sonra geri qaytarılırsa, bu, insan alveri hesab edilir. Bununla belə, qeyd etmək lazımdır ki, uşaq əməyi haqqında dövlətlərin daxili qanunvericiliyi əhəmiyyətli dərəcədə fərqlənir və Protokolda göstərilən standartlara uyğun gəlməyə bilər.

Azərbaycan Palermo Protokoluna 2003-cü ildə qoşulsa da Azərbaycan Respublikasının Cinayət Məcəlləsində müvafiq dəyişiklik 19 aprel 2013-cü il tarixində edilmişdir. Dəyişiklikdə yuxarıda qeyd edilən hal nəzərə alındı. Belə ki, Məcəllənin 144-1.1-ci maddəsinə (3-cü bənd) qeyd şəklində daxil edilmişdir: "yetkinlik yaşına çatmayan şəxsin istismar məqsədi ilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi bu Məcəllənin 144-1.1-ci maddəsində göstərilən üsullardan istifadə olunmasa da, insan alveri hesab edilir" [6].

İnsan alverinə qarşı mübarizə üzrə Avropa Birliyinin Brüssel Bəyannaməsinə əsasən uşaq cinayətləri, köləlik, ev qulluqçuluğu, cinsi istismar, məcburi əməklə yanaşı uşaqların diləndirilməsi də insan alverinin formalarından biri hesab edilir.

Azərbaycanda yetkinlik yaşına çatmayanların öz valideynləri və ya başqa şəxslər tərəfindən avaralığa cəlb edilməsi zamanı əlli manatdan doxsan manatadək məbləğdə cərimə edilir və ya işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda beş gündən on beş günədək müddətə inzibati həbs tətbiq edilir [7, mad. 522].

25 iyun 2015-ci il tarixindən Ədliyyə Nazirliyinin insan alveri qurbanlarına hüquqi yardım göstərmə səlahiyyəti ləğv edilmiş və insan alveri qurbanlarına Kömək Fondu sədrinə hüquqi yardım göstərilməsi haqqında müqavilə bağlaması (məhkəmələrdə iddiaçı və cavabdeh kimi çıxış etmək, Fondun adından tələb və iddialar irəli sürmək üzrə) səlahiyyəti verilmişdir [8].

25 iyun 2015-ci il tarixində Nazirlər Kabinetinin bir sıra qərarlarına edilmiş dəyişikliklərə əsasən insan alveri ilə mübarizə sahəsində fəaliyyət göstərən QHT-lərin insan alveri qurbanlarına hüquqi yardım göstərməsində, eləcə də onların sosial reabilitasiyası və qurbanlar

üçün xüsusi müəssisələrin fəaliyyətinin təşkilində yaxından iştirakı, xüsusi müəssisə tərəfindən müqavilə əsasında ştatdankənar mütəxəssislərin cəlb edilməsi, xüsusi müəssisədə insan alveri qurbanlarına göstərilən xidmətlərin nəticələrinin qeydiyyatının aparılması və istifadəsi üçün konfidensial elektron məlumat bazasının formalaşdırılması nəzərdə tutulmuşdur. [9].

**Məqalənin aktuallığı.** Qlobal xarakter kəsb edən insan alveri ilə mübarizə və alver qurbanlarının sosial müdafiəsi Azərbaycanda mövcud normativ-hüquqi sənədlərə, beynəlxalq normalara, müqavilələrə, konvensiyalara və öhdəliklərə uyğunlaşdırılaraq həyata keçirilir. Bu isə insan alveri ilə mübarizə istiqamətində fəaliyyətin təkmilləşdirilməsi və ölkənin beynəlxlaq sənədlərlə bağlı öhdəliyinin yerinə yetirilməsinə xidmət edir.

**Məqalənin elmi yeniliyi.** Azərbaycan Respublikasında insan alveri ilə mübarizə üzrə hüquqi sənədlər beynəlxalq normalara uyğunlaşdırılsa da bu istiqamətdə fəaliyyətdə müəyyən boşluqlar müşahidə olunur. Məqalədə bu problem araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə ölkədə insan alveri ilə mübarizədə qanunvericiliyin təkmilləşdirilməsi və bu istiqamətdə fəaliyyətin beynəlxalq normalara uyğun şəkildə həyata keçirilməsi baxımından müsbət təsirə malikdir.

## Ədəbiyyat

1. http://www.stopvaw.org/Trafficking_Explore_the_Issue.html
2. BMT-nin “Transmilli mütəşəkkil cinayətkarlığa qarşı” Konvensiyası, onu tamamlayan “İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında” və “Miqrantların quru, dəniz və hava ilə sərhəddən qanunsuz keçirilməsinə qarşı” Protokolların təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 13 may 2003-cü il. “Azərbaycan” qəzeti, 07 avqust 2003-cü il, № 179
3. https://ru.wikipedia.org/wiki/%D0%9D%D0%B0%D0%BB%D0%BE%D0%
4. http://www.meclis.gov.az/?/az/report/79
5. BMT-nin “Transmilli mütəşəkkil cinayətkarlığa qarşı” Konvensiyasını tamamlayan, “İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması” haqqında Protokol, 2000
6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. 2017-ci il mayın 31-dək edilmiş əlavə və dəyişikliklərlə, 158 s.
7. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. 2017-ci il dekabrın 15-dək edilmiş əlavə və dəyişikliklərlə, 61 s.
8. “İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydalarında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 iyun 2015-ci il tarixli 246 nömrəli qərarı, 1 səh.
9. http://www.meclis.gov.az/?/az/report/76

**Г. Назарова**

## Анализ международного и национального законодательства по борьбе торговли людьми

## Резюме

Торговля людьми включает, как минимум, эксплуатацию проституции других лиц или другие формы сексуальной эксплуатации, принудительный труд или услуги, рабство или обычаи, сходные с рабством, подневольное состояние или извлечение органов.

В этой статье показаны анализ и разница работы между местными и международными организациями по борьбе торговли людьми, а также разница между законами о помощи жертвам и их социальной реабилитации и реинтеграции.

**G. Nazarova**

## Analysis of international and national laws on struggle against human trafficking

## Summary

Trafficking in human being shall include, at a minimum, exploitation of prostitution of others or other forms of sexual exploitation, forced labour or services, slavery or practices similar to slavery, servitude or removal of organs.

National and international documents was analyzed on the assistance to the victims of human trafficking, social rehabilitation and reintegration process of the victims in the article.

**Redaksiyaya daxil olub:** 11.02.2019